USTAD YANAN OCAQDA

ŞAİR HÜSEYN KÜRDOĞLUNUN HƏYATI VƏ YARADICILIĞI HAQQINDA MƏQALƏLƏR, XATİRƏLƏR, DÜŞÜNCƏLƏR

Əli Rza XƏLƏFLİ

UNUTMURAM QIRĞI BAXIŞLARI...

Sovruldu ömrümüz, dənimiz getdi,
Başda dumanımız, çənimiz getdi.
Can dedik Vətənin hər parasına,
"Və" qaldı can üstə, "tən"imiz getdi.

Əli Rza Xələfli

Bu yazının adını "Bir səhvin tarixçəsi" də qoya bilərdim. Bir dəfə H.Kürdoğlu haqqında yazılarımdan birində "Bircə dəfə də qarşı-qarşıya gəlmədiyim Hüseyn Kürdoğlu" ifadəsini işlətmişəm. Bilmirəm, hansı hissin təsirilədə. Yaddaşımın küncündə özünə əbədi yer eləmiş vaxt ölçüsü çox kiçik olan bu görüşü mən niyə unutmuşam.

80-ci illərin ortaları olardı. İşlədiyim Cəbrayıl rayon qəzetindən ezamiyyətə göndərilmişdim. «Sahil» metrosundan çıxıb Jurnalistlər birliyinə getmək istəyirdim. Əllərində məşəl tutmuş əzəmətli insan - daş abidənin yanında orta məktəb müəllimim Qorxmaz Bayramovu iki-üç nəfərlə dayanıb söhbət edən gördüm. Bir anlığa ayaq saxladım. Dönüb görüşməyə tərəddüd edirdim. Qorxmaz müəllim məni görüb əli ilə işarə elədi ki, yaxına gəl. Bir az çəkinə-çəkinə yaxın gedib görüşdüm. Yanındakı adamları göstərib - bu Məmməd Aslandır, bu da Hüseyn Kürdoğlu... - dedi. Onlarla dostluğundan, poeziyalarından bir az danışıb əlavə elədi. - Partiya işinə keçdiyimə görə məni danlayırsız. Ədəbiyyat paymı Əlirzaya vermişəm - deyib məni də təqdim elədi. Onu da əlavə elədi ki, Diridən, Qurbani yurdundanam. Rayon qəzetində işləyirəm. Sonra da yazılarımdan, rayon qəzetinə gətirdiyim yeni ab-havadan danışdı. Hamının diqqəti məndə idi. Hüseyn Kürdoğlu gözlərimə tuşlanmış nəzərləri ilə məni süzdü. Yerini, yurdunu unutmasa, hə - dedi. Mən də Hüseyn Kürdoğlunun *«Durna səsi»* kitabından bir dördlük dedim:

Baxtımın tərlanı uçar, qayıtmaz,
Səhər yelləri tək keçər, qayıtmaz.
Durna qatarına dönmüş illərim,
Min bir həsrət ilə köçər, qayıtmaz.

Qorxmaz müəllimlə Məmməd Aslan dördlüyü təhlilə başladılar. Diqqətim Hüseyn Kürdoğluda idi; Gözləri oyur-oyur oynayırdı. Qara, sıx saçlar, geniş alın... qırğı baxışları dünyaya meydan oxuyurdu. Elə bil hansı külək, hansı qasırğa isə onu elə indicə dağlardan qəfil gətirib bu şəhərin arasına atmışdı. Nə deyirdisə, gözləri ilə deyirdi. Bəlkə də təkcə yeri-yurdu yox, elə zamanı da dəyişmişdi. Orta əsr qeyrət qəlilərinə xas qürüru mənəm-mənəm deyirdi. Ruhunun odu, alovu elə onu içəridən qaynadırdı. Bu ocağın tüstüsü başından yox, alovu gözlərindən çıxırdı.

- Nə yaxşı şəhərə gəlməmisən? - Hüseyn Kürdoğlu soruşdu.

- Gələ bilməmişəm.

- Niyə?

- Burda işlərim alınmadı, - pedaqoji institutu göstərdim, suallı baxışlarını görüb, - bilmirəm, müxtəlif bəhanələrlə məni qıraqda qoydular - dedim.

- Gör nə qədər sənin kimiləri yaxına buraxmırlar.

Qorxmaz Bayramov şairin təəssüfünü görüb özünə xas bir gülüşlə *«hələ buna da şükür»* deyib - məni özünə tərəf çəkdi. - Kənddən də rayon mərkəzinə buraxmırdılar. Raykomun qəbulundan bir təhər keçirdik. Namizədliyini də Bahadur müəllim vermişdi - Əlirzanın tarix müəllimi. Bizə təzə redaktor gəlmişdi, onun da böyük köməyi oldu, etiraz eləmədi. Özü də institutu fərqlənmə ilə qurtarıb.

- Bilirəm, kadrlara münasibətdə elə bil ki, bu fərqlənmə məsələsindən qorxurlar. - Məmməd Aslan da söhbətə qarışdı.

Şair isə elə bil ki, öz aləmində idi. Dinmirdi. Amma az sonra ağır-ağır dillənndi: - Bəlkə elə Tanrı qoruyub. Buraların havası çox qarışıqdı - yenə nəzərlərimi mənə yetirib - heç darıxma, oralarda nə yazsan, təmizliyini, təzəliyini həmişə saxlayacaq, - dedi.

Şairin bu sözlərinə cavab üçün çiyinlərimi çəkdim.

Payız küləyi əsirdi. Xəzəllər ordan-burdan qalxır. Qanadlanan yarpaqlar bəzən aramızdan keçirdi. Axır ki, cəsarətləniib *«Durna səsi»* kitabı haqqında qəzetdə yazdıqlarımı da dedim. Birdən Qorxmaz Bayramov da *«Hə, heç yadıma düşmür. Əlirza «Durna səsi»ndən bir yaxşı yazı da yazıb. Elə sənin gələcək tədqiqatçın bəlkə bu olacaq»*, - dedi.

Hiss elədim ki, bu söhbət şairə çox xoş təsir elədi:

- Bəlkə akademiyaya gələsən.

Təklifi sükutla, yenə çiyinlərimi çəkməklə qarşıladım.

Düzü o vaxt akademiya mənim üçün qapalı, bir az da yad kimi görünürdü. Amma akademiyaya gəldim, təəssüf ki, çox gec gəldim: «Kredo» qəzeti ilə.

O vaxt taleyin bu ironiya qarışıq hekayəti heç kimin ağlına gəlmirdi.

...Sonralar Qorxmaz müəllim mənə həmişə deyərdi ki, səndə Hüseyn Kürğolunun ruhu var. Onunla sənin aranda bir mənəvi qohumluq görürəm.

Mən də... Hüseyn Kürdoğlunu hər xatırlayanda elə bilirəm mənə əmanət elədiyi Dirini, Qurbanini soruşacaq.

Deyirəm, kaş soruşmayaydı. Ancaq unutmuram qırğı baxışları, odlu gözləri...

Varlığım ruhuna çəkdi saxladı,
Ətirli gül bildi, əkdi saxladı,
Əhdinə, vədinə bükdü saxladı,
Yaddaş kitabımda bitən sözləri,
Qırğı baxışları, odlu gözləri.

Sözü olmayanlar sovuldu getdi,
Sözün meydanından qovuldu getdi,
Vecsiz inadlar da ovuldu getdi;
Gözlərim axtardı itən izləri,
Qırğı baxışları, odlu gözləri.

Gəlsin tufan kimi külək şeirlər,
Durna qatarından lələk şeirlər,
Oxşasın qəlbimi mələk şeirlər,
Öpsün nəzərlərim ötən nazları,
Qırğı baxışları, odlu gözləri.

Ayrılıq odunu söz yaşı yusun,
Xudafərin üstə köz yaşı yusun;
Bircə şad xəbərin göz yaşı yusun,
Həsrəti yandırıb ütən üzləri,
Qırğı baxışları, odlu gözləri.

Xələfli dərdinin çölünə gəlsin,
Yansın atəşinə, külünə gəlsin.
Yazsın çəmən-çəmən, gülünə gəlsin.
Sevgidə vüsala yetən yazları,
Qırğı baxışları, odlu gözləri.

...Gözlərimin önünə gəlir Kurqanlar. Nəhəng torpaq təpələri; Eradan əvvəl III-VII minilliyin abidələri. Bizim Xələfli kəndinin ərazisində, elə bütün Cəbrayıl, bütün Qarabağda belə kurqanlar çox idi.

Bir də var ruhumuzun kurqanları. Hüseyn Kürdoğlu da ruhumuzun kurqanı idi.

...Kurqanlar tarixin və ruhumuzun yaddaşıdır.

12.06.2014

"BİLƏRDİN DƏRDİM, EY DÜNYA..."

1. Söz ki var, son ucu irmaqdı

Yatıram köz çağırır,
Dururam göz çağırır.
Fikirdə ağrı, acı,
Yaddaşda söz çağırır.

Əli Rza Xələfli

Ustadın zəngin yaradıcılıq aləmi ilə tanışlıq mənə təkcə bədii zövq vermir, həm də düşüncə qatlarının dərinliklərinə vardıqca, onun həyatının fərəhli və kədərli, zövqlü və iztirablı anlarını dünya qəmindən xali və bu dünya qəminin içində olan taleyini görürəm. Gördükcə də onun yaradıcılığına daha çox bağlanır, həyatının istər ağ, istərsə də qara günləri haqda düşünməli oluram.

Əgər belə demək mümkünsə, duyğularımın və duyduqlarımın nəticəsində hər hansı bir sənətkarın yaradıcılığını dərindən duymaq elə onun həyatını yenidən yaşamaqdır - qənaətinə gəlirəm.

Düz otuz bir il bundan əvvəl şair Hüseyn Kürdoğlunun "Durna səsi" kitabı ilə bağlı yazdığım, eyni adla *"Xudafərin"* (o vaxt *"Kolxozçu"*) qəzetində dərc olunmuş qeydlərə baxıram. Sözə qəddar, sənətkara qarşı amansız münasibət sanki hər cümlədə diş qıcayır. Açıqlayım...

Əvvəla, yazının adı *"Söz içində durna səsi"* olsa da, təhrif olunub, yalnız kitabın adı kimi başlıq saxlanıb. Verdiyim başlığa uyğun yazdığım, ruhu qanadlandıran publisistik şərh ixtisar edilib. Bu da yazının əvvəlində üslub dolaşıqlığına, kəsilib doğranmış hissələrin bir-biri ilə əlaqəsizliyinə gətirib çıxarmışdır.

O vaxt redaktorla aramızda fikir ayrılığı oldu. Redaktor bir az da qəzəbla: *"Heç olmasa yazsaydın "göy üzündə"* bəlkə, razılaşmaq olardı" - dedi. Mən də etiraz eləyib *"yox, həmin ifadəni "söz içində" mahiyyəti düşüncəyə gətirir"* - cavabını verdim. Onu da qeyd edim ki, bütün yazı boyu şairin adı yalnız yazının əvvəlində saxlanıb. Bu da şairə münasibətin daha bir təzahürü...

İndi kimsəni qınamaq fikrindən uzağam. Tezis varsa antitezis də var.

Y.E.Qolosovker yazırdı: *"Əgər günəş işığının strukturundan danışırıqsa, deməli, fikir işığının da strukturu mövcuddur. Bilginin hər növü öz strukturuna malikdir. Lakin bilginin strukturu ilə yanaşı nadanlıq və sapmaların da strukturu olur. Necə ki, biz işıqda struktur aşkarlayırıq, eləcə də zülmətin, o cümlədən ruhun zülmətinin öz strukturunu da tapmaq mümkün. Gərçi yanlışlığın, nadanlığın və mənəvi zülmət uçurumunun strukturu varsa, onda ecazkar, qəribə, möcüz olanın da strukturu mövcuddur. Əgər əlaqələndirilmiş aldanışlar nöqsanlar sistemi kimi nəzərdən keçirilərsə, o zaman uzlaşdırılmış "möcüzələr" də ecazkarlığın sistemi qismində təqdim edilə bilər. Sistem olan yerdə isə məntiq labüddür. Təbii ki, "ecazkarlığın məntiqi" də mümkündür. Bundan savayı: mən razıyam ki, mifləri düzüb qoşmuş dərrakəli yaradıcı qüvvə, - onun adı Təxəyyüldür, İmaginasiyadır", - indi də bizim içimizdə, xüsusilə, şair və filosofun dünyasında, daim fəaliyyətdədir, hərçənd özünü bir xeyli məxfiləşdirib. Nə qədər ki, təxəyyül sönməyib, bir o qədər də ecazkarlığın məntiqi yaşayır. Həqiqətin üstündən xətt çəkəndə onu da tullamaq olar. Mən elə bilgi görmək istərdim ki, həqiqətsiz mövcud olsun. Hətta həqiqətdən imtina edib onu tapıklayan adam da bu işi həqiqət naminə görür.*

Haqqı "çeynənmiş" həqiqətlərlə "döyürlər". ("Mifin məntiqi", Bakı 2006. səh.5).

Göründüyü kimi, müəllif hətta dövrünə görə təhlükəli ifadələr işlədir. Qəlibə sığmayan hökmlər verir. Fərqli düşünmənin mahiyyətini açır və bunun inkişafın əsası olduğunu öz məntiqi ilə əsaslandırır. Yakov Emmanuiloviç Qolosovker (**1890-1967**) Sovet filosofu olsa da düşüncələrində qəlibələrə sığmır, ideologiyaya tabe olmurdu. Təəyyülün ecazkarlığından danışanda təsadüfi deyil ki, şairləri və filosofları xüsusilə xatırladır. Bütün bunlar bizim düşüncəmizdə ona görə çözələnir ki, şair Hüseyn Kürdoğlu düşüncə stereotiplərini - qəlibləri şimşək güclü dördlükləri, bəzən çox sərrast və açıq-aydın ikilik, üçlük deyimləri ilə dağıdırdı:

Qarğa dimdiyini qızıla tutan,
Qızılgüldən utan, bülbüldən utan.

yaxud:

Sözün qanadıyla uçmaq istəsən,
Dünya bazarından ucada dur sən.

Eləcə də "baxt" və "vaxt" anlamlarını qarşılaşdıraraq tarixi bir mənzərə yaradır, şüuraltına nüfuz edir:

Təzəcə gəlmişdi yazı baxtımın,
Kəsdilər başını quzu baxtımın.

Külfətin üzünə baxdın əliboş,
Vaxtın üzü qara, baxtın əli boş.

Bu düşüncənin daşıyıcısını senzor sözsöz gəzir, zərrəbinlə izləyirdi. Çünki o durna səsi, dolu döyməsi, çəmənlərin ayaqlanması, insanların həyat tərzi, təbiətə təcavüzün qanlı izləri ilə düşüncəni qanadır, xüsusi ağrı hissi yaradır, bununla da yaddaşa təsir göstərirdi.

Sanki çoban ocağını daşa basdılar;
Dolu vurdu, köz-köz olub dağıldı lalə,
Çiliklərdi bu çəməndə min bir piyalə.

Bu deyimlərin məna qatlarına vardıqca keçib gəldiyimiz yolların həqiqətlərini görməmək mümkün deyil. Çünki kağız üzərindəki sözlərin hər biri canlı olaraq danışır, təbiət donuna bürünmüş tarixi söz eləyir. Tarixi həqiqətləri "söz eləməyi" isə tək başşa ideologiya nəinki xoşlamır, heç bağışlamırdı da.

Bütün bunların hamısını deməkdə, bəlkə də, çoxlarına məlum həqiqətləri çözələməkdə məqsədim odur ki, "haqqı çeynənmiş həqiqətlərlə döyən" zəmanədə açıq fikirli, düşüncəsi qandalsız şair üçün yaşamaq, kitablarının nəşri ilə dolanışığını təmin etmək çətin idi. Ona görə də, onun xüsusi razılıqla şeir gecələri keçirilmir, qəzəlləri radio və televiziyanın muğam saatlarında səslənmirdi. Təəssüf ki, bu tendensiya müəyyən mənada bu gün də davam edir. Yoxsa muğam müsabiqələrində Hüseyn Kürdoğlunun qəzəlləri heç olmasa bircə dəfə, az qala aylarla davam edən oxular zamanı bircə gecəni bəzəyərdi. Axı təzə söz, eşidilməyən poetik örnək ruha daha sürətlə nüfuz edir. Kim sevinməzdi, əgər Hüseyn Kürdoğlunun bu qəzəlini muğam üstə dinləsəydi:

Bilərdin dərdim, ey dünya, mənimlə yoldaş olsaydın,
Bu sellənmiş Araz içrə cəfakeş bir daş olsaydın.

Qırardın bəndini şəksiz, aşardın dağlar üstündən,
Əzabı gizli gözlərdə boğulmuş qan-yaş olsaydın.

Nələr söylərdin heyrətlə başın çəkmiş müsibətdən,
Bəyaz barmaqlar üstündən qalan bir daş-qaş olsaydın.

Qalardın qeydinə sən də şirin canın, nübar eşqin,
Qudurmuş qəm qamarında məmləkət çay-baş olsaydın.

Köçər Kürdoğlu qoynundan, xəbərsizsən şairlərdən,
Bilərdin ki, nə qafilsən bir anlıq sirdaş olsaydın.

Bu yerdə bir qədər, əgər belə demək mümkünsə, mövzudan kənara çıxmaq istərdim. Nisbətən cavan nəsil ədəbiyyatşünas alim İlham Məmmədlinin "Kəlbəcər ədəbi mühiti" ilə bağlı filologiya üzrə fəlsəfə doktorluğu müdafiəsində iddiaçının elmi rəhbəri, professor Şirindil Alışanlı dedi ki, biz mövzunu seçəndə çoxları razılaşmaq istəmirdi. "Məhdud, bəsit mövzudur" deyə bizi məqsəddən çəkindirmək istəyənlər də oldu. Amma müdafiə göstərdi ki, mövzuya yaxın olan, mühiti bilən tədqiqatçı araya-ərsəyə necə ciddi nəticələr gətirə bilər.

(Davamı 9-cu səhifədə)

USTAD YANAN OCAQDA

ŞAİR HÜSEYN KÜRDOĞLUNUN HƏYATI VƏ YARADICILIĞI HAQQINDA MƏQALƏLƏR, XATİRƏLƏR, DÜŞÜNCƏLƏR

(Əvvəli 8-ci səhifədə)

Professor doğru deyirdi. Həqiqətən İlham Məmmədli Kəlbəcərdəki ədəbi mühiti yaradan obyektiv və subyektiv amillərin tarixi, coğrafi, siyasi, mənəvi əsaslarını dərindən araşdırmış, bu nadir fenomenal mühitin unikal mahiyyətini göstərə bilmişdi. Burada əsas güc göstəricisi, zənnimizcə, tədqiqatçının mühiti tanıması, prosesə dərindən bələdliyidir.

Yaxud, tədqiqatçı İlham Qəhrəmanın Sarı Aşıqla, eləcə də Laçın ədəbi mühiti ilə bağlı fəaliyyəti ona görə diqqəti çəkəndir ki, mühitin içində böyümə əsas şərt olaraq qalır.

Bu mənada, mühitə bələdlik mahiyyətində şair-tədqiqatçı Hüseyn Kürdoğlunun Sarı Aşıqla bağlı tədqiqatçılıq, mətnşünaslıq fəaliyyəti bilavasitə mövzuya anadangəlmə doğmalığı ilə bağlıdır. Çox güman ki, professor Şirindil Alışanlı həm də elə məsələnin bu baxımdan polemik tərəfinə münasibət bildirərkən yazırdı: *"XX əsr ədəbiyyatşünaslığının klassik "ədəbi mif", obraz yaradıcılığı bu gün də davam edən stereotiplər yaratmışdır. Əslində ədəbi fikrə siyasi müdaxilənin tüğyan etdiyi XX əsrdə kütləvi müfləşdirmə, kütləvi psixoz əsasında yaranmış qəliblər, klişe edilmiş təsəvvürləri, stereotipləri aradan götürməyə elmi fikrin inadlı, inadkar mübarizəsi lazımdır. Bu mübarizənin əsasında ədəbiyyatın öz mahiyyətindən, daxili qanunauyğunluğundan, daxili dünyasından irəli gələn meyarlar dayanmalıdır.*

Bu gün klassik irs haqqında yazan ədəbiyyatşünas klassiklərə kongenial olmalıdır. XX əsr poeziyasının klassiklərini, onların bədii dünyasını yenidən şərh edən ədəbiyyatşünas yüksək bədii, estetik dünyagörüşə malik olmalı, çağdaş günlərimizə qədər mövcud olan dəyərləndirmə prinsiplərini bilməlidir. Heyiflər olsun ki, tənqidçi və ədəbiyyatşünasların əksər qismi yenə də bu miflərin əsiridirlər. Tənqidə gələn yeni nəsil də tarixən formalaşmış stereotiplərdən asılı vəziyyətdədir. Çünki klassik sənətkarın müasir dərki və qiymətləndirilməsində kongeniallıq hər tədqiqatçıya nəsib olan məsələ deyil. S.Vurğun, R.Rza, S.Rüstəm obrazını hansı istiqamətdəsə təshih etməyə "hazır ədəbiyyatşünas qıtlığı" var. Qeyri-professional jurnalist tənqidi bu sənətkarları çox zaman birdəfəlik inkar edir, partiya və dövlətin məddahçısı elan edirlər. Bir siyasi məzmunlu ifratı başqası əvəz edir. Bu gün XX əsr poeziyasını yenidən qiymətləndirməyə cəhd edən tədqiqatçı bütün tarixi ədəbi-nəzəri təcrübəni mənimsəməklə yanaşı, sənət kriteriyaları, bədii zövq və dünyagörüşü baxımından, heç olmasa bu sənətkarlara yaxın səviyyədə olmalıdır. Ədəbi sözün da daxili dünyasını dərk etməyən, inersiya, yazmaq vərdişi ilə namizəd və doktor olmuş tədqiqatçı çətin S.Vurğun şeirinin fərdi poetik dünyasını yeni, müasir mövqedən qiymətləndirə bilsin" **(Ş.Alışanlı. ədəbi-bədii düşüncənin sərhədləri. Bakı, 2010. səh. 18-20).** Bu qeydlər professorun "XX əsr poeziyasının müasir dərkində "ədəbi mif amili" məqaləsindəndir. Bir sözlə, Hüseyn Kürdoğluya münasibətin bazasında da ögey yanaşma durur. Zahirən yad səsləşmə... Bir vaxt həyata Xəyyamanə münasibət, dövrə Baba Tahir Üryan sayağı düşüncə tənqid edilir, orta əsr düşüncəsinin bərpasına havayı, bihudə cəhdlər kimi qiymətləndirilirdi. Hüseyn Kürdoğlu Tofiq Hacıyevin təbirincə desək, dördlükdə yeni era yaratdı. Və bu yeni era yox yerdən yaranmadı. Baba Tahir Üryanın XI əsr düşüncəsindən gələn səslərə diqqət edək.

Geydirdin qəlbimə göy rəngli köynək.
Qəminlə dağladın qəlbi lalətək.
Hicrindən sızlaram, qan-yaş tökərəm
İsrafilin suru səslənənədək.

Gəl, bir dəm sızlayaq, alışıb yanaq,
Sən də mən dərddəsən, birgə odlanaq.
Təya getməlisən mənim yanımda
Eh bülbül! Dərd-qəmdir mənə yaşamaq.

Gecə ay üzünün divanəsiyəm,
Gündüz dərd-qəminin biçarəsiyəm.
Sevgilim, bir yerdə tutsan da qərar,
Gəzirəm, eşqinin avarəsiyəm.

Baxsa xumar-xumar nazənin mələk,
Hər an əsir olar minlərcə ürək.
O ay çöhrəlinin aşiqlərinin
Yaxşısı, pisi var mənim şeirimtək.

Dubeytilər adlanan Baba Tahir Üryan dördlükləri şərqşünas akademik Rəfael Hüseynovun tərcüməsindədir.

Bu dübeytilərdən gələn işığın davamını Hüseyn Kürdoğlu dördlüklərində çox aydın görürük. Bu ənənəvi poeziyanın əbədi yaşarlıq gücünün təsdiqidir. Hüseyn Kürdoğlu da həmin işıqda yazırdı:

Qələm gözdən düşüb gətirmir əlim,
Dönüb çay daşına gövhərim, ləlim.
Başımın üstündə dolanır, baxır,
Göy üzündən gələn quzğundur ölüm.

Sözlərimə can qoymağım hədər deyil,
Sözdə yoxsa can şirəsi bəhər deyil.
Cana doyub tez köçsəm də bu dünyadan,
Bilirəm ki, şeirim gəldi gedər deyil.

Bu dördlüklər Hüseyn Kürdoğlu sənətinə yaraşan yarlıqlardır. Bir vaxt S.Vurğunun üzünə qarşı "yenə saz, yenə gəldi gedərlik dünyası" deyənlərin varisləri onu daşlasa da, bütövlükdə xalq, milli varlıq onu ürəyinin başında, qəlbinin içində, ruhunda qoruyub saxlayır.

Hüseyn Kürdoğlunun söz irmağından danışırdım. Və deyəsən bir qədər kənara çıxdım.

Hüseyn Kürdoğlunun mənəvi mühiti insana ucalıq gözü ilə baxmaq, ali varlığı ali gücündə görmək istəyi üzərində formalaşmışdı. O, bir sənətkar, şair missiyası ilə sözünü, sənətini insanı qorumaq, dünyanı xilas etmək naminə səfərbər etmişdi. Sanki dünyanın dərdini təkcə daşımaq elə ona qalmışdı. Və bu da onun artıq bir çox xəstəliklərin, eləcə də özünə qarşı laqeyd və biganə münasibətin sayəsində zəif düşmüş canını-cəsədini bir az da gücdən salırdı. Bir növ Hüseyn dirigözlü, gözlər baxa-baxa, hamının gözü qarşısında ölürdü. O ölümü mərdanəliklə gözləməkdə olsa da özünün xilaskarlıq missiyasından da geri çəkilmirdi.

Dağ kəndlərində dəyirmanlar əsasən dağ çaylarının suyu ilə işlədilir. Bu nisbətən ucuz enerji mənbəyidir. Şair dünyanı dəyirmana bənzədəndə onun pərinin-daşının su ilə, maye ilə hərəkətə gətirildiyini də unutmur və çox təəssüf ki, bu maye dünya adlı dəyirman üçün insan qanıdır.

Bu dünya fələyin dəyirmanıdır,
Daşını firladan bəşər qanıdır.

Yaxud, dünya qayğısını car çəkən başqa bir ikiliyində də onun dünyanı əmanətləmək, ümumi insan evi olan dünyanı qorumaq istəyi açıq-aşkardır.

Sən də bu dünyaya bir pəncərə sal,
Ev ki, səninkidir, qayğısına qal.

Hüseyn Kürdoğlunun dünyası quruca dörd divar evdən ibarət olmadığı kimi, təkcə Yer kürəsi, planet anlamında da deyil. Bəşərin günümüzəcən yaratdığı nə varsa, hamısı bu dünya adlı evin içindədir. Təbiətdə bir qayanı milyon illik yerindən tərpədib yumalamaqla təbiətin harmoniyasına xələl gətirilir. Demək bir quşun yuvasını dağıtmaq da eləcə zərərli bir əməldir, təbiətə zərbədir. Təbiətdə nəyə toxunsan məkan daxilində nə varsa hamısı fəryad eləyir:

Şığıdı kəkliyi, tutdu qızılquş,
Dağlar inildədi dilində qarğış.

Şığıyıb kəkliyi tutanın özü də təbiətin bir parçası olsa da, biz onu təcavüzkar kimi, ağına, bozuna baxmadan talançılıq aparan təbiət qatilləri kimi görürük.

Şair yalanlara, haqsızlıqlara qarşı sözü ilə vuruşub, xarakteri ilə sinə gərib, hər cür qeyri-insanilik mahiyyətinə qarşı döyüşüb. Hüseyn Kürdoğlu kütləvi etiraz dövründə xalqı ilə bir yerdə idi. Açıq-aşkar deyirdi:

Otuz il gördüyüm ağ yalan oldu,
Zərrə dağ sayıldı, dağ yalan oldu.
Şair qələmi də uydu yalana,
Haqsız taxta çıxdı, haqq yalan oldu.

O, həmişə mənəvi mühitin qaynar yerində olub. İstər gərgin siyasi kataklizmlər dövründə, istərsə də mənəvi çarpışmalar mühitində... *"Elin dar günündə gözdən itirsən, Çal-çağır olanda gözdə bitirsən!"* - kimi ifadələri indi də dillər əzbəridir. *"Dağ suları sel gətirər, Bağ suları gül gətirər"* deyimi ruhumuza bir həzinlik, sığal gətirir, gül obrazı ilə dünyanın gözəllik donu gözlərimizin önündə əlvan, yaşarı bir mənzərə yaradır, həyata çağıran bir irmaq təsəvvür edirik. Amma elə deyimləri də var ki, qəzəbimizi, mübarizə əzmimizi səfərbər edir: *"Şor torpaqda bar olmaz, şorgözdə ilqar olmaz"*, *"Ya cığıra düşən daş, ya düz yoldan azan baş"*, yaxud *"Kor qəmə qobursuz olar, boşboğaz abırsız olar"*. Bu deyimlərdə xalq məsəl və hikmətlərinin təsiri də hiss olunur. Və minilliklərlə yaşı ölçülən, cilalanmış məsəl və hikmətlərdən seçilməyən gücdə səslənmiş bu deyimlər Hüseyn Kürdoğlunun xalq ruhuna, milli varlığa nə qədər bağlı olduğunun göstəricisidir. Şairin sözə, sevgiyə münasibəti də həmişə birmənalı olub:

Qəlbimdə dünyanın yüz ağrısı var,
Hamısından betər söz ağrısı var.
Su deyil, dərmandır, əndərmə sözü,
Acı bağırsağa döndərmə sözü.

Əzəl sevgi, əzəl görüş, əzəl söz,
Qaymaq üstə bal kimidir gözəl söz.
Sözün çeşməsi də var, gur seli də var,
Biri həyat verər, biri batırar.

Şair bütün keşməkeşli həyatı boyu sanki bir həqiqəti tapmış, ona tapınmışdı: *"Hər qəlbin sevgisi gizli bir quyu, ordadır tilsimli dirilik suyu"*. Yəni, həyatın mənası, yaşamağın dəyəri sevginin nə dərəcədə ruha hakim olmasından asılıdır. Şair yazılarında irmaq sözünü dəfələrlə işlədir. Təbiətin cənnəti mənasında, yaşıl vadi, həyat mənbəyi və s. anlamlarında. Əncaq bu irmaq elə sənətkarın öz yaradıcılığıdır. Həmişə çağlar dirilik çeşməsi olan sözü şairin cismani həyatından yüz illər keçsə də yaşayacaq, insanlara dirilik bəxş edəcəkdir. Irmaq - yaşıl vadi səhrada karvanları çağırdığı kimi.

Bu yerdə Laçın təbiətindən qopub gəlmiş və o təbiətin özünü ruhunda, sözündə qoruyan dostuma - "Şair İlham Qəhrəmana məktub" adı ilə yazdığım misralar düşüncələrimə ayaq verdi:

Şimşək çaxdı - göz bilər,
Sinə yandı - köz bilər.
Kim yazdı, necə yazdı -
İlham bilər, söz bilər.

Söz ki var... son ucu irmaqdır. Səhra həyatımızdan ruhumuz həmişə o irmağa can atır.

07.08.2017



Şairin qəzəllər aləmində

Dövran ötər, var əriyər,
Ömür yetər, yar əriyər.
Qurtarar qış, gələr bahar,
Ümid bitər, qar əriyər.

Əli Rza Xələfli.

Şairin təb göstəricisi, klassik ənənələrə yaradıcı bağlılığını, insan və dünya qarşılaşmasında insana münasibətin təzahürü kimi sənətə çevrilmiş hiss və həyəcanların ifadəsi olan qəzəllərini seyrçi bir nəzərlə oxuyub keçmək olmur. Zənnimcə, Hüseyn Kürdoğlunun qəzəlləri onun əzəmətli şair obrazının müasir düşüncədə öz yerini tutmasında az əhəmiyyət kəsb etmir. Demək olar ki, onun hər bir qəzəli əbədi yaşarı sənət örnəyidir. Ədəbiyyatşünaslığın ən yüksək ranqında Hüseyn Kürdoğlunun yaradıcılığı haqqında yazılar qələmə alınsa da, söz deyilsə də, yenə bütün bunlar epizodik səciyyə daşımışdır. O cümlədən qəzəlləri də ətraflı və əhatəli tədqiqata cəlb olunmayıb. Əncaq necə deyərlər, buz qırılıb. Artıq iki tədqiqat əsəri yazılıb. Professor Q.Paşayevin və tədqiqatçı Ə.Vəliyevin monoqrafiyaları nəşr olunub. Şairin qəzəllərini müxtəsər də olsa, ilk araşdıranlardan biri də professor Qəzənfər Paşayevdir. Müdrik alim sənətkarın bu janra üstün münasibətini kriter ədəbiyyatşünas missiyası ilə dəyərləndirməklə bərabər, onun yaradıcılığına dostcanlı yanaşmasını da pərdələmir: *"Klassik ənənəyə sadiq qalan şairin bir kitablıq qəzəlləri vardır.*

Kürdoğlu qəzəllərində güldən, bülbüldən, gözəldən, gözəllikdən ilham almaqla bərabər, vətənə, soy-kökə bağlılıqdan, ustadı Füzulidən, XX əsrin qəzəlxanı Vahiddən, musiqi səcdəgahı, şeir bulağı Nardarandan, şairlərin ilham mənbəyi Xəzərdən, zəmanəmizin keşməkeşlərindən də söz açır.

Şairin əruz vəznində uğurlarına dəlalət edən bir qəzəlindən üç beyti oxucu və tədqiqatçıların nəzərinə çatdırmağı münasib bildik:

Eylərəm indi də mən aləmi heyran qəzələ,
Canım istərsə əgər peşkəş ola can qəzələ.

Onda min bir gözəlin cilvəsi var, işvəsi var,
Eşq zövqüylə könül min kərə qurban qəzələ.

Qalmaqaldan uzaq olsun, təzələnsin ruhu,
Qulaq assın həvəs ilə qoca dövran qəzələ.

Şairin qəzəllərini oxuduqca heyranlıq bir yana, təəccüblənməmək olmur. Hecə vəznində klassik şeirimizin əlçatmaz nümunələrini yaradan, folklor və aşıq yaradıcılığı üstündə köklənən Hüseyn Kürdoğlunun əruz vəznində belə qəzəllər yazması onun fitri istedadından nişan verir. (**Q.Paşayev. "Hüseyn Kürdoğlunun poetik dünyası", monoqrafiya, Bakı, 2017, səh. 45**). Müdrik alimin yaşının indiki çağında ədəbi döyüşlərdən birgə keçib gəldiyi müasirinə, özü demiş, onun çoxcəhətli yaradıcılığına ayrıca monoqrafiya həsr etməsi bizdə belə bir təəssürat yaradır ki, müdrikləri cəmiyyətin gələcəyi daha çox düşündürür. Şöhrət hissi də, özünü təqdim etmək təkəbbürü də bu yaşda gələcəyi düşünmək missiyasından çox aşağı-dadır.

Kosmopolit düşüncə həmişə olub. Bu gün özünü dünya vətəndaşı bilənləri qınamaq qəsdimiz yoxdur. Amma dünyaya göz açan nəsilə hansı yurdun övladı olduğunu qandıra bilməsək, o, heç ləyaqətli dünya vətəndaşı da ola bilməz.

Hüseyn Kürdoğlu da lirikasında, xüsusilə qəzəllərində yaxıcı muğam sədaları ilə (*o şair intuisiyası ilə qəzəllərini musiqi müşayiəti ilə oxunmaq üçün yazırdı*) insanlara kimliyini, haradan gəlib, haraya getdiyini başa salmaq, öyrətmək istəyirdi.

(Davamı var)